


AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

7 oktyabr 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 38 (3551)


# ŞANLI QƏLƏBƏMİZ DÜŞMƏNƏ GÖZDAĞIDIR






Bir il bundan əvvəl Vətən müharibəsinin ilk günlərində Müzəffər Ordumuzun strateji əhəmiyyətli Talış kəndini və Suqovuşan qəsəbəsini işğaldan azad etməsi düşmən üzərindəki psixoloji üstünlüyü ələ almaqla yanaşı, həm də böyük qələbəmizin başlanğıcı idi. Ermənistanın havadarları ilə birgə qurduğu çox güclü, keçilməz istehkamları, eləcə də "yenilməz ordu"sunu saatlar içində darmadağın edən Şanlı Ordumuz düşmənin canlı qüvvəsinin hərəkətlərini, taktiki gedişlərini tam nəzarətə götürmüşdü. Bu artıq Ermənistana və havadarlarına xəbərdarlıq mesajı idi.

Oktyabrın 3-də Ali Baş Komandan İlham Əliyev Tərtər rayonuna səfəri zamanı çıxışında bir daha Zəfərə aparan yolu, müharibə dönəmində erməni ordusunun fərariliyini, eyni zamanda, işğal müddətində mənfur düşmənin törətdiyi ekoloji terroru dünya ictimaiyyətinin diqqətinə çatdırdı.

Azad olunmuş ərazilərdə gedən tikinti, quruculuq işlərinə toxunan dövtətimizin başçısı mövcud perspektivlər, gələcək planlar haqqında da danışdı. "Şərqi Zəngəzur və Qarabağ iqtisadi zonalarında bütün lazımi şərait yaradılır, konkret addımlar atılır",-deyən Prezident İlham Əliyev Ermənistanın çox ciddi icra edilən proqramın gedişatına heç nə ilə müdaxilə edə bilmədiyini və Azərbaycan dövlətinin sürətli siyasi və iqtisadi inkişafına yalnız seyrçi qaldığını bildirdi.

Azərbaycan Prezidentinin Suqovuşandakı tarixi çıxışı ölkəmizin regionda söz sahibi olduğunun təzahürü, həm də ermənilərə mənəvi dayaq olub, şanlı qələbəmizə qara yaxmaq istəyənlərə gözdağıydı.

Bugünlərdə acı məğlubiyyətlərinə sərsəm çıxışı ilə don geyindirib haqq qazandırmağa çalışan Xocalı qatili Sarkisyana, xalqının ona olan nifrətini yumşaltmaq məqsədilə ulu öndərimiz Heydər Əliyev haqqında söylədiklərinə də Azərbaycan Prezidentindən tərs sillə gəldi.

"Fərarilərin içində Ermənistanın keçmiş prezidenti Serjik Sarkisyan da var idi. Bu yaxınlarda mənə verilən məlumata görə, o, haradasa Azərbaycan haqqında, Ulu Öndər haqqında öz səviyyəsinə uyğun çirkin sözlər ifadə etmişdir. Birinci fərari elə odur. Çünki o, müharibə zamanı Xankəndiyə soxulmuşdu, guya orada hansısa işlər görəcək. Amma görəndə ki, Azərbaycan Ordusu artıq gəlir və onun qulağından tutub Bakıya gətirə bilər, qorxaqcasına oradan fərari kimi qaçmışdır. Mən ona Serjik Sarkisyan ona görə demirəm ki, onu alçaltmaq istəyirəm, ona görə ki, bu, onun əsl adı və soyadıdır. Bizim arxivlərimizdə bu məlumat var. Onun "metirka"sında, yəni, doğum haqqında şəhadətnaməsində, onun komsomol biletində Sarkisyan Serjik yazılıbdır. Sonra bunu edib Sarkisyan Serj. Guya "Serj", necə deyərlər, məqbul bir addır".

Ali Baş Komandan Serjikə ən yaxşı cəzanın erməni xalqı tərəfindən verildiyini, eləcə də onun törətdiyi cinayətlərə ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun da şərik olduğunu diqqətə çatdırdı.

"Onlar Serjiklə əlbir olaraq, - bilmirəm, sövdələşmə nəyin əsasında olub, amma təxmin edə bilərəm, - onun qələbəsini tanıyıblar. Bu adamı Ermənistanda kütləvi surətdə lağa qoyurlar, ələ salırlar, ona nifrət edirlər. O, seçkilərdə özünə 50 faizdən çox səs yazdırır, özünü baş nazir təyin etdirir və ATƏT də buna göz yumur, buna razılıq verir. Bax, iki saxtakar - biri ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu, hansı ki, Azərbaycana hər zaman xor baxır, biri də Serjik".

Revanşist hisslərlə yaşayanlara müraciət edən Ali Baş Komandanımız "Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" nidasını və "Dəmir yumruğ"un düşmənin başını əzmək üçün hər zaman yerində olduğunu xatırladıb.

# ŞƏBƏKƏ ÜZVLƏRİ SAXLANILIB

## *Onlar narkotiklərin satışını həyata keçirirdilər*

Daxili İşlər Nazirliyi Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşlarının daxil olmuş əməliyyat məlumatı əsasında Qaradağ rayonu ərazisində keçirdikləri tədbir zamanı paytaxt sakini İsmayıl Qədirov saxlanılıb. Onun üzərinə baxış zamanı 12 qram, idarə etdiyi avtomobildən isə 4 kiloqram heroin aşkar edilib.

Binəqədi rayonunda həyata keçirilən digər bir əməliyyat zamanı narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olmaqda şübhəli bilinən Məzahir Musayev də saxlanılıb. Onun üzərindən 24 qram, idarə etdiyi "Ravon" markalı maşından isə 2 kiloqram 50 qram heroin aşkar edilib.

Baş İdarə əməkdaşları tərəfindən həyata keçirilən növbəti əməliyyat zamanı narkotiklərin satışını həyata keçirən şəbəkəyə daxil olan daha 3 nəfər – Sənan Tağızadə, Şamxal Abbasov və Nicat Quliyev saxlanılıblar. Bu şəxslərin üzərində ümumilikdə 27 qram heroin və metamfetamin aşkar edilib. Əməliyyat tədbirlərinin davamı olaraq N.Quliyevin yaşadığı evdən 19 kiloqram 845 qram heroin və 635 qram metamfetamin aşkar edilərək götürülüb.

Qeyd edilən bu əməliyyatlar zamanı saxlanılan İ.Qədirov, M.Musayev, S.Tağızadə, Ş.Abbasov və N.Quliyevin ətrafında aparılan araşdırmalarla müəyyən edilib ki, onlar xarici ölkələrdə yaşayan və Azərbaycana qaçaqmalçılıq yolu ilə narkotik maddələr göndərən narkotacirlərlə əlaqələr yaradaraq narkokuryerliyə cəlb ediliblər. Onların əsas məqsədləri müxtəlif vasitələrlə əldə etdikləri külli miqdarda narkotik vasitə və psixotrop maddələrin ölkə ərazisində qanunsuz dövriyyəsini təşkil etmək olub. Bu şəxslər həmçinin, narkotik maddələrin onlayn yolla satışından əldə olunan pul vəsaitlərinin nağdlaşdırılmasına da nəzarət ediblər. Bununla, saxlanılan İ.Qədirov, M.Musayev, S.Tağızadə, Ş.Abbasov və N.Quliyev narkotik vasitələrin satışından əldə edilən çirkli pulların dövriyyəsini həyata keçiriblər. Həmin şəxslərin ətraflarında həyata keçirilən əməliyyat-texniki tədbirlərlə və əldə olunan digər sübutlar vasitəsi ilə onların cinayətləri təkzibedilməz faktlarla sübuta yetirilib.

Baş İdarənin Cənub Bölgəsində Regional Şöbəsinin əməkdaşlarının həyata keçirdikləri əməliyyatlar zamanı narkotik vasitələrin qanunsuz dövriyyəsi və onlayn yolla satışı ilə məşğul olan daha 4 nəfər saxlanılıb. Əməliyyatlar zamanı Nicat Bağırov, Məzaim Nuriyev, Ağarza Tağıyev, eləcə də Səfail Rzayev paytaxt və Lənkəran şəhəri ərazilərində tutulublar. N.Bağırovdan 3 kiloqrama yaxın heroin, 341 qram marixuana, 158 qram metamfetamin, 17 qram həşiş, elektron tərəzi, narkotik vasitələrin satışı zamanı istifadə etdiyi bank kartı və içərisində narkotiklərin satışı ilə bağlı qeydlər apardığı dəftər aşkar edilib. M.Nuriyevin üzərindən və idarə etdiyi avtomobildən isə 4 kiloqram 143 qram heroin, 367 qram tiryək, 1 kiloqrama yaxın metamfetamin, 300 ədəd psixotrop tərkibli metadon həbi və elektron tərəzi aşkar olunub. Əməliyyatlar zamanı saxlanılan A.Tağızadə və S.Rzayevdən isə ümumilikdə 25 qram heroin və metamfetamin aşkar edilib.

Qeyd edək ki, sonuncu əməliyyatlar zamanı Baş İdarənin əməkdaşları tərəfindən ümumilikdə 36 kiloqrama yaxın ağır tərkibli narkotik vasitələr və psixotrop maddələr, həmçinin 300 ədəd metadon həbi dövriyyədən çıxarılıb. Saxlanılan şəxslər barədə həbs qətimkan tədbirləri seçilib.

# QƏHRƏMANLARIMIZI ANIRIQ

## Şəhid hərbi qulluqçularımızın il mərasimləri keçirilib

**Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən Vətən müharibəsində qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalan DİN Daxili Qoşunlarının hərbi qulluqçularının il mərasimləri keçirilib.**

Anım günləri ilə əlaqədar keçirilən tədbirlər Cəlilabad, Bərdə, Biləsuvar, Beyləqan, İsmayıllı, Zərdab, Gədəbəy, Bakı şəhərinin Xəzər, Qaradağ və Sabunçu rayonlarını əhatə edib.

Mərasimlərə DİN-in rəhbər şəxsləri, Baş İdarə rəisləri, Daxili Qoşunların rəhbər heyəti, eləcə də rayon polis idarələrinin əməkdaşları, şəhidlərin ailə üzvləri, döyüş yoldaşları və rayon ictimaiyyəti qatılıb.

İştirakçılar şəhid məzarlarını ziyarət edib, gül-çiçək dəstələri düzüblər. Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş bütün şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.












Mərasimlərdə çıxış edənlər Ordumuzun şanlı qələbəsindən, şəhidlərimizin keçdikləri döyüş yolundan danışıb, göstərdikləri şücaət və qəhrəmanlıqlardan söz açıblar. Onların igidlik və qəhrəmanlıqlarının gənc nəsillər üçün daim örnək olacağı vurğulanıb, hər bir şəhid ailəsinin, qazinin ölkə rəhbərliyinin diqqət və qayğısı ilə əhatə edildiyi diqqətə çatdırılıb. Şəhidlərimizin daima xalqımızın yaddaşında əbədi olaraq yaşayacaqları və unudulmayacaqları xüsusilə qeyd edilib.

Şəhid ailələri göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Tədbirlər qarşıdakı günlərdə də davam etdiriləcək.

# QARABAĞDA 1 il

## Azərbaycan Polisi Böyük Qayıdışa zəmin yaradır




Vətən müharibəsində böyük Zəfərə hər kəndi, hər şəhəri qarış-qarış azad edib yaxınlaşırdıq. Müharibənin ilk günlərində Tərtər rayonunun Suqovuşan və Talış kəndlərinin düşmən tapdağından azad edilməsi qələbənin ilk müjdəsi oldu.



Ardınca Cəbrayıl rayonunun bir neçə kəndinin və rayon mərkəzinin işğaldan qurtulması suverenliyimizin addım-addım bərpasına gətirib çıxardı. Müharibənin ilk ongünlüyündə azad edilən kəndlərimizdə polis əməkdaşları öz xidməti fəaliyyətlərinə başlamışdılar. Bu ərazilərə gedən yollarda Daxili Qoşunların hərbi qulluqçuları ilə birgə stasionar post qurulur, kəndlərin ərazisinə giriş-çıxış nəzarətə götürülürdü.

Yaradılmış stasionar postların əsas məqsədi minalarla və partlayıcı vasitələrlə çirkləndirilmiş ərazilərə mülki əhalinin daxil olmasının qarşısının almaq idi ki, bu tapşırığın öhdəsindən də polis əməkdaşları məharətlə gəlməyi bacardı. Müxtəlif gizli yollarla qanunsuz şəkildə minalardan və partlayıcı vasitələrdən tam olaraq təmizlənməmiş ərazilərə daxil olmaq istəyən şəxslərin stasionar postlarda saxlanılması və onların məsuliyyətə cəlb edilməsi insan tələfatıyla nəticələnə biləcək faciələrin qarşısını aldı.

Məhz bu tədbirlər nəticəsində indiyə qədər polis əməkdaşları tərəfindən azad edilmiş torpaqlarda xeyli sayda silah-sursat aşkar edilərək aidiyyəti üzrə təhvil verilib.



Mülki əhalinin təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə qabaqlayıcı tədbirlər bu gün də davam etdirilir.

Bununla yanaşı, ətraf rayon sakinləri ilə profilaktik söhbətlər aparılır. İşğaldan azad edilmiş ərazilərdə mina və partlayıcı vasitələrin insan həyatına təhlükə yarada biləcəyi, faciəvi nəticələrin olacağı barədə mütəmadi şəkildə vətəndaşlara məlumatlar verilir, xəbərdarlıqlar edilir.

İşğaldan azad edilmiş ərazilərdə polis əməkdaşları tərəfindən 1 il ərzində görülmüş tədbirlər Böyük Qayıdışdan sonra vətəndaşlarımızın təhlükəsiz, əmin-amanlıqda yaşamalarına zəmin yaradır. Bu məqsədlə polis əməkdaşları qarşıya qoyulmuş tapşırıqları layiqincə yerinə yetirirlər.



# Ağ xalatlı xilaskarlar

## Yazırlar: "Biz canımızı da, sağlamlığımızı da onlara əmanət edirik"...

**Bu gün ölkəmizdə müasir standartlara cavab verən hospitallar arasında DİN-in A.Heydərov adına Respublika Hospitalının adı ilk sırada çəkilir. Zəngin maddi-texniki bazaya və peşəkar tibbi personala malik bu tibb ocağında daxili işlər orqanları əməkdaşları, onların ailə üzvləri, veteranlarla yanaşı digər vətəndaşlar da müalicə alıb sağlıqlarına qovuşurlar. Göstərilən xidmət məmnunluqla müşahidə olunur.**



Bu barədə DİN-in Facebook səhifəsinə jurnalist Valeh Mirzə yazır: "Jurnalist həmkarım Bahar Məmmədovanın səhhətində yaranan ağır problemlərin çarəsini məhz A.Heydərov adına Respublika Hospitalının peşəkar həkimləri tərəfindən tapılacağına inanırdım. Buna görə də DİN rəhbərliyinə müraciət etdim. Müraciətimə dərhal baxıldı və həmkarımın Nazirliyin Tibb İdarəsinin hospitalında müayinə və müalicəsinə başlanıldı. Hospitalın peşəkar tibb personalının böyük səyi sayəsində onun sağlamlığı bərpa olundu. Bütün bunlar DİN rəhbərliyinin diqqət və qayğısının təzahürüdür. Vətəndaş müraciətlərinə həssaslıqla yanaşıldığına görə sonsuz təşəkkürümü bildirirəm".

"Polis veteranıyam. Bir qərinəyə yaxın müddətdə daxili işlər orqanlarında xidmət etmişəm və bununla qürur duyuram. İllər öncə 1992-ci ildə xidmətdə olarkən cinayətkarı zərərsizləşdirən zaman güllə yarası aldım. Bu gün də həmin gülləni bədənimdə gəzdirirəm. Səhhətimdə isə bir problem yaranan kimi DİN-in A.Heydərov adına Respublika Hospitalına müraciət edirəm. Peşəkar tibb personalı tərəfindən mənə göstərilən xidmətdən çox razıyam. Son illərdə daha da təkmilləşən hospitalımızda tibbi xidmət müasir səviyyədə təşkil olunub. Bu sağlamlıq ocağının təcrübəli və qayğıkeş tibb ailəsi hər birimizin köməyinə çatır, şəfqətini əsirgəmir. Burada veteranların, polis əməkdaşlarının, onların ailə üzvlərinin, əlillərin sağlamlığının qorunması ölkə və DİN rəhbərliyinin diqqət və qayğısının parlaq təzahürüdür. Bu dəfə də səhhətimlə bağlı bağlı bura müraciət etdim. Müayinədən sonra Cərrahiyyə şöbəsində palataya yerləşdirildim. Şöbənin rəisi, tibb üzrə fəlsəfə doktoru, ümumi cərrah Vüsal Eminov məni bir daha xüsusi müayinə etdikdən sonra əməliyyata aldı. Əməliyyat uğurla keçdi. Sağlamlığıma qovuşmağımda əməyi keçən hər kəsə, Hospitalın rəisi, polis polkovniki İsbi Babaxanov başda olmaqla bütün tibbi personala minnətdarlığımı bildirirəm". Bu sözlər Bakı şəhər sakini, polis veteranı Malik Tarıverdiyevin DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubundandır.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# HƏRBİ XİDMƏT BORCUNU VİCDANLA YERİNƏ YETİRƏN ƏSGƏR

Daxili Qoşunların hərbi hissələrində öz hərbi intizamı, təlimdə çalışqanlığı ilə fərqlənən, komandirləri tərəfindən müsbət xarakterizə olunan əsgərlər çoxdur. Onlar müsbət fərdi keyfiyyətləri ilə yoldaşlarına nümunədirlər. Belə əsgərlərdən biri Qoşunların "N" saylı hərbi hissəsinin avtomobil bölüyünün əsgəri Murad Seyfullayevdir. O, 2021-ci ilin aprelindən müddətli həqiqi hərbi xidmətdədir.

2003-cü il aprelin 2-də Masallı rayonunun Digah kəndində doğulan M.Seyfullayev Sakit Tağıyev adına tam orta məktəbin məzunudur. Ailədə və məktəbdə vətənpərvər ruhda tərbiyə alıb. Məktəbli olarkən müxtəlif idman növləri ilə məşğul olub, yarışlarda iştirak edərək uğurlu nəticələr göstərib. Xüsusən cüdo, futbol və şahmata böyük marağı var. Hərbi xidmətə çağırılanadək bir müddət avtomobil təmiri sahəsində işləyib.


Şəhid Araz Seyfullayev

***Muradın böyük qardaşı Araz Seyfullayev Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xüsusi təyinatlı kimi xidmət edib. 44 günlük Vətən savaşında Araz şəhidlik zirvəsinə ucalıb. Qəhrəmanımız Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Şücaətə görə" və "Füzulinin alınmasına görə" medalları ilə təltif olunub.***

Qardaşının yoxluğuna dözmək Murad üçün ağır olsa da, Arazın torpaqlarımızın düşmən tapdağından azad edilməsi naminə göstərdiyi şücaət və fədakarlığın qəlbində qürur hissi yaratdığını vurğuladı.

Bölük komandirinin vəzifəsini müvəqqəti icra edən leytenant Orxan Mamedov əsgər M.Seyfullayevin hərbi xidmət borcunu vicdanla yerinə yetirən hərbi qulluqçu olduğunu, verilən tapşırıqların öhdəsindən layiqincə gəldiyini, təlim və məşğələlərdə əzmkarlıq göstərdiyini, hərbi kollektivdə hörmət qazandığını bildirdi.


əsgər Murad Seyfullayev

Murad hərbi xidmətdən sonra polis olmağı və asayişin, sabitliyin keşiyində dayanmağı arzulayır. Hərbi qulluqçumuza xidmətində uğurlar diləyirik.

# Tarixdə qalanlar

**Tarixə "91-lər" kimi düşüblər. Yenicə qazandığımız müstəqilliyimizi itirmək təhlükəsi ilə üzləşdiyimiz o çətin dönəmlərdə xalqın aydınları qaranlıqları yarmağın yolunu ulu öndəri ali hakimiyyətə dəvət etməkdə gördülər.**

Millətin taleyini düşünərək özünü ölümün ağuşuna atan şəxsiyyətin Vətən qarşısındakı xidmətlərini görməzlikdən gələnlərə, ona hər addımda quyu qazanlara dərs vermək üçün "91-lər" o illərdə çox çətin və məsuliyyətli bir işin altına çiyinlərini verməklə, Azərbaycanı azadlığına qovuşdurduqlarının fərqində idilər. Və "91-lər"in birliyi ümummilli hərəkata çevrildi.

**Bu gün haqq dünyasında olan, Birinci Qarabağ müharibəsi veteranı, məşhur 91-lərin üzvü Arif Rüstəmovu** bizə yenidən xatırladan məktubla ötən illərə bir daha körpü saldıq. Bütöv bir tarixi dövrü özündə əhatə edən şəkillər köhnəlsə də məktubdakı "Bu uşaqlar indi daxili işlər orqanlarında xidmət edirlər" cümləsi elə bu yazının yazılması üçün, əslində, bir başlanğıc oldu. Məktub müəllifi ilə əlaqə saxladıq. O illərin xatirələrini bizimlə onun ömür-gün yoldaşı bölüşdü. Şəkildəki "uşaqlar" da arayıb-axtarıb tapdıq. Tural və Ramin Rüstəmovlar acılı-şirinli tariximizin şahidləridirlər. Atalarının bu dövlətin var olması üçün "Qurtuluşa məhz ulu öndər zəkası ilə çatmağın yeganə yol olduğu" fikrini indi də eyni həyəcanla xatırlayırlar.

**Polis mayoru Tural Rüstəmov** 2010-cu ildə daxili işlər orqanlarında xidmətə başlayıb. Hazırda Nizami RPİ 25-ci Polis Şöbəsinin baş əməliyyat müvəkkilidir.


Arif Rüstəmov

**Polis kapitanı Ramin Rüstəmovun** xidməti fəaliyyətindəki nailiyyətləri, təcrübəsi, peşəkarlığı, eləcə də yüksək nizam-intizamı nəzərə alınaraq vəzifədə irəli çəkilib. O, Abşeron Rayon Polis İdarəsi Qobu Polis Bölməsinin rəis müavinidir.

Qardaşlarla görüşümüzdə əvvəlcə yaxın keçmişə boylandıq. Hələ uşaq ikən dövlətçilik naminə ataları ilə birgə apardıqları mübarizədə üzləşdikləri çətinlikləri, onlara edilən təzyiqləri Rüstəmovlar belə xatırlayırlar: "Ölkədə hərc-mərclik baş alıb gedəndə biz məktəbli idik. Atam Arif Rüstəmov da hamı kimi Heydər Əliyevin Azərbaycana gəlməsi, vəziyyəti ələ alıb ölkəyə rəhbərlik etməsi üçün çox çalışırdı. Biz də bu mübarizədə atamızın yanındaydıq. Əlimizdə ulu öndərin portreti meydanlarda "Heydər baba, bizi xilas et!" şüarları səsləndirirdik. Buna görə qohumlarımız arasında ailəmizi qınayanlar, hətta qarşı çıxanlar da oldu. Mübarizə əzmimizi sındırmaq üçün məktəbdə yuxarı sinif şagirdlərinə bizi döydürmüşdülər. Hətta gözümüzü qorxutmaq məqsədilə Suraxanı rayonundakı həyət evimizi yandırmışdılar",-deyən qardaşlar o gün, bu gün nə olursa-olsun daima haqqın, ədalətin yanında, haqsızlığın qarşısında duracaqlarına söz veriblər...

Bu gün onlar əyinlərindəki polis mundirinə, andlarına sadiqdirlər. İctimai asayişin, ictimai təhlükəsizliyin keşiyində mətin dayanır, cinayətkarlığa qarşı qətiyyətli mübarizə aparır, vətəndaşların konstitusion hüquqlarını, qanuni mənafelərini hər cür hüquqazidd qəsdlərdən qoruyurlar.

Təhlükədə olanın yardımına yetişmək, vətəndaş məmnunluğunu təmin etmək məqsədilə gecəli-gündüzlü xidmət apardıqlarını bildirən həmsöhbətlərim dünən atalarının, bu gün isə özlərinin xalqın xidmətçisi olduqları ilə fəxr etdiklərini, DİN rəhbərliyi tərəfindən onlara göstərilən etimadı bundan sonra da doğruldacaqlarını vurğuladılar.

# Şanlı səhifələr...

## *Polis Akademiyasından bəhs edən kitabın təqdimatı olub*





DİN-in Polis Akademiyasında "Polis Akademiyası: 100 illik xidmətin şanlı səhifələri (1921-2021)" adlı kitabın təqdimatı keçirilib. Təqdimatda Akademiyanın professor-müəllim heyəti, veteranları və kursantları iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan **DİN-in Polis Akademiyasının rəisi, polis polkovniki Canpolad Daanov** Akademiyanın tarixini və müasirliyini özündə əks etdirən "Polis Akademiyası: 100 illik xidmətin şanlı səhifələri (1921-2021)" adlı kitabın hazırlanmasında və ərsəyə gəlməsində əməyi olan hər bir əməkdaşa dərin minnətdarlığını bildirib. Akademiyanın yaranmasının yubiley mərasimində də daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun iştirakı diqqət çəkən C.Daanov verilən tapşırıq və tövsiyələrin həm şəxsi heyətin, həm də Akademiyanın fəaliyyətində dönüş yaradacağına inandığını vurğulayıb.

Doqquz fəsildən ibarət olan kitabın arxiv sənədləri və materialları əsasında hazırlandığını bildirən **"İctimai elmlər" kafedrasının rəisi, polis polkovnik-leytenantı, tarix üzrə fəlsəfə doktoru Rəhim Məcnunov** qeyd edib ki, kitabda əksini tapan məlumatlar və arxiv fotoları Polis Akademiyasının tarixini araşdıranlar üçün çox dəyərli mənbədir.

**Akademiya rəisinin birinci müavini, polis polkovniki, professor Mahir Əhmədov** və polis veteranı, dosent Tahir Behbudov kitabın çox nəfis hazırlandığını, onun Akademiyanın tarixinə ekskursiya edilməsində böyük əhəmiyyət kəsb edəcəyini bildiriblər.

Tədbirdə Akademiyanın bir qrup veteranına "Polis Akademiyasının 100 illiyi (1921–2021)" yubiley döş nişanı və hədiyyələr təqdim edilib.

Sonda xatirə şəkli çəkdirilib.

# RƏĞBƏTƏ LAYİQ XİDMƏT

**Mixail Qusman:** ***"Azərbaycan Polisi müharibə dövründə təhlükəsizliyin və sabitliyin qarantı oldu"***

Oktyabrın 4-də Azərbaycan Diplomatik Akademiyasında "İnformasiya təhlükəsizliyi" mövzusunda TASS xəbər agentliyinin baş direktorunun birinci müavini, məşhur jurnalist və tərcüməçi Mixail Qusmanın master-klass seminar-tədbiri keçirilib.

Tədbirdə Prezident Administrasiyasının, bir çox Nazirliklərin nümayəndələri, eyni zamanda, jurnalistlər iştirak ediblər.



Seminarda kiberhücumlar, informasiyanın mötəbərliyi, dezinformasiya, ictimai rəy, sosial mediadan səmərəli istifadə kimi mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Tədbirdə diqqət çəkən məqamlardan biri də Mixail Qusmanın 44 günlük Vətən savaşında Azərbaycan Polisinin fəaliyyətindən bəhs etməsi olub: "Azərbaycan Polisi yüksək peşəkarlıq nümayiş etdirdi. İstər birinci Qarabağ müharibəsi dönəmində, istərsə də 44 günlük Vətən müharibəsində düşmən arxa cəbhədə ictimai asayişi pozmaq məqsədilə paytaxtda və ölkə ərazisində müxtəlif növ təxribata, o cümlədən terrora əl ata bilərdi, lakin polis əməkdaşları qarşılarına qoyulan tələb və göstərişlərin öhdəsindən layiqincə gələrək, təhlükəsizliyi yüksək səviyyədə təmin etdilər".

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Qan ver, HƏYAT QURTAR!





**Anım Günü ilə əlaqədar Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən keçirilən silsilə tədbirlər çərçivəsində növbəti qanvermə aksiyası Xəzər Rayon Polis İdarəsində baş tutub.**

Milli Hematologiya və Transfuziologiya Mərkəzi - Qan Bankı bölməsinin təşkilatçılığı ilə keçirilən aksiyada İdarənin rəhbərliyi olmaqla 30 əməkdaş iştirak edib.

Donorlar əvvəlcə həkim nəzarətindən keçirilib. Onların təzyiqləri ölçülüb, qanda hemoqlobinin miqdarı müəyyənləşdirildikdən sonra sağlıq durumu imkan verənlərin aksiyada iştirak etmələrinə icazə verilib. Könüllülük prinsipi əsasında keçirilən qanvermədə ümumilikdə 9 litr qan tədarük edilib. Yeri gəlmişkən, RPİ-də xidmətə yeni başlayan Vətən müharibəsi qazisi, "Kəlbəcərin azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuş, PPXB-nin polis nəfəri, polis sıravisi Şirxan Qaravəliyev aksiyada könüllü iştirak etmək istəsə də sağlıq durumu imkan verməyib.

Qeyd edək ki, tədbir Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyən etdiyi karantin qaydalarının tələbləri nəzərə alınmaqla keçirilib.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Şəhid övladlarının arzusu...





Bugünlərdə “Aqrar inkişaf könüllüləri” təşkilatı maraqlı aksiya keçirib. Könüllülər elan etdikləri layihə çərçivəsində şəhid övladlarının arzularını soruşublar. İki uşaq böyüyəndə polis olmaq istədiklərini bildirib, öz qeydlərini təşkilatın simvolik “Xəyal Qutusu”-na atıblar.

Uşaqların istəkləri Bakı Şəhər Baş Polis İdarəsinə çatdırılanda, əməkdaşlarımız gələcək həmkarlarımızı - Kamran Niftəliyev və Musalı Dəryanı İdarəyə dəvət edib, onlara arzularının çin olmasına indidən yardımçı olmağa çalışıblar. İctimai Təhlükəsizlik İdarəsininin Yetkinlik Yaşına Çatmayanlarla Profilaktik İş Bölməsinin əməkdaşları şəhid övladlarına yiyələnmək istədikləri polis peşəsi barədə ətraflı məlumat verərək, xidməti otaqlardakı iş prosesi ilə tanış ediblər. Azyaşlılar polis idarəsində maraqlı gün keçiriblər.





**Bakı şəhər BPİ İctimai Təhlükəsizlik İdarəsinin bölmə rəisi, polis polkovniki İbrahim İsmayılov** qəzetimizə bildirib ki, Vətən müharibəsində şəhid olan hərbçilərin ailə üzvləri, övladları bizə əmanətdir. Onlara mənəvi dəstək olmaq, qayğılarını bölüşmək, arzularının gerçəkləşməsinə yardımçı olmaq əmanətə sahib çıxmaqla yanaşı, həm də şəhid ruhuna ehtiramın təzahürüdür. Biz də uşaqları Baş İdarəyə dəvət etməklə, onların arzularına “işıq tutmağa” çalışdıq.

# VAKSİNASİYA DAVAM ETDİRİLİR

**Koronavirus infeksiyasının qarşısının alınması, virusa yoluxma və ölüm səviyyəsinin aşağı salınması üçün bu bəşəri bəlaya qarşı mübarizə məqsədilə peyvənd olunma prosesi bu gün də davam etdirilir.**

MDB ölkələrində koronavirusa qarşı peyvəndlənmənin səviyyəsi barədə məlumatlara əsasən, regionda həm peyvənd olunmaya ilk başlayan, həcminə və ondan istifadə sürətinə görə əksər ölkələri qabaqlayan ölkəmizdə artıq 3-cü doza vaksinin vurulmasına başlanılıb.





Hazırda Daxili İşlər Nazirliyinin 1 və 2 nömrəli poliklinikalarında əməkdaşların peyvəndlənməsi, həmçinin üçüncü doza vaksinin vurulması prosesi davam edir. Koronavirus infeksiyasının bütün ştamlarına qarşı ən effektli qoruyucu mexanizmin vaksinasiya olduğunu bildirən DİN 1 nömrəli Poliklinikasının infeksionist həkimi, tibb xidməti mayoru Sevinc Tağıyeva “Polis”in suallarını cavablandıraraq onu da qeyd etdi ki, peyvəndlənmənin başladığı gündən indiyədək 1 nömrəli Poliklinikada 10 min 700 əməkdaşa birinci, 8 min 600 əməkdaşa isə ikinci doza vaksin vurulub. Hazırda 3-cü doza vaksinin vurulması prosesi davam edir və bu ilin sentyabr ayının 8-dən bu günə 500-dən çox əməkdaş peyvənd olunub.

Yeri gəlmişkən, poliklinikalarda xüsusi peyvənd otaqları ayrılıb ki, burada həkim briqadaları tərəfindən vaksinasiya olunandan sonra əməkdaşların səhhəti nəzarətdə saxlanılır.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# Veteranımızın yaradıcılıq uğuru

## Onun əsərləri dünyanı fəth edir

Polis veteranının filmi növbəti dəfə beynəlxalq festivalda ölkəmizi təmsil edəcək. Söhbət Cəlaləddin Qasımovun “Şollerin arxivi” və “Stalinin qaranlıq keçmişi” adlı bədii filmlərindən gedir.

Təqaüdə çıxandan sonra rejissorluq fəaliyyəti ilə məşğul olan keçmiş həmkarımızın hər iki filmi “Toronto 4th Multicultural Film” festivalının seçilmiş filmlər siyahısına daxil olunub.

Qeyd edək ki, Toronto Film Forumu alternativ və müstəqil film istehsalçılarını bütün dünyaya nümayiş etdirmək və tanıtmaq məqsədi ilə 2014-cü ildə işə başlayıb. Festival müxtəlif dillərdən, mədəniyyətlərdən olan kinorejissorların filmlərini təqdim etmək üçün böyük bir fürsət yaradır.

Filmlərin ssenari müəllifi, quruluşçu rejissoru və baş prodüseri Cəlaləddin Qasımov bildirib ki: “Azərbaycan mədəniyyətini, dəyərlərini dünyada tanıtmağımla qürur duyuram. Bu, təkcə mənim yox, bütövlükdə mədəniyyətimizin uğurudur. Düşünürəm ki, hər bir yaradıcı insan qismən də olsa ölkəmizin təbliğ işinə töhfə verməlidir”.

“Şollerin arxivi”nin süjet xətti ötən əsrin 40-cı illərində Azərbaycanda yaşamış alman mənşəli Şollerlər ailəsinin həyatı üzərində qurulub. Ekran əsərində alman ailəsinin



timsalında insan dramı göstərilir. Eyni zamanda, xalqımızın multikultural dəyərlərə sadiq qalması nəzərə çatdırılır. Filmdə baş verən hadisələr real həyatdan götürülüb. Bədii film Azərbaycan kino tarixində beynəlxalq festivallarda ən çox uğur əldə edən ekran əsərlərindəndir.

“Stalinin qaranlıq keçmişi” filmində isə minlərlə insan ölümünün baiskarı kimi tanınan Stalinin ömür yoluna, xüsusilə də Bakıdakı fəaliyyətinə yer ayrılıb.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# Koronavirus xəstələri saxlanılıb

Karantin rejimi tələblərinin təmin edilməsi, koronavirus infeksiyasının ölkə ərazisində yayılmasının və törədə biləcəyi ağır fəsadların qarşısının alınması məqsədilə daxili işlər orqanlarının əməkdaşları paytaxt ərazisində, eləcə də bölgələrdə nəzarət-profilaktik tədbirləri davam etdirirlər.

Sentyabrın 29-dan oktyabrın 5-dək olan müddətdə polis əməkdaşları tərəfindən 5 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkar edilərək saxlanılıb. İzahedici söhbətlər aparıldıqdan sonra tibbi prosedurlar gözlənilməklə onlar yaşadıqları ünvanlara qaytarılıb və bu barədə müvafiq səhiyyə qurumları məlumatlandırılıb.

Ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, yaşayış yerini tərk edən 1 nəfər barəsində isə Cinayət Məcəlləsinin 139-1.1 (Epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb.

## Sentyabr ayının 29-dan oktyabrın 5-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən 227 cinayətin üstü “isti izlər”lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 57 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 250, o cümlədən borclu şəxs qismində axtarışda olan 186 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 12 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 12 nəfər ölmüş, 4 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 139 fakt müəyyən edilmişdir.

## ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

**Nəqliyyatda Baş Polis İdarəsi** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Bakı şəhər sakini R.Bayramlıdan 42 ədəd tramadol və 5 ədəd metadon həbləri aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Suraxanı RPİ 32-ci PB** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oktyabrın 2-də Qaraçuxur qəsəbə sakini A.Apayevin kart həsabından 1900 manat oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini İ.Mövsümov saxlanılmışdır.

◆◆◆

Oktyabrın 1-də saat 23:00 radələrində Səbail rayonunun Xəqani küçəsində Kürdəmir rayon sakini R.Seyidov əcnəbi vətəndaş A.Emirinə zor tətbiq edərək içərisində 920 lirə olan pulqabısını alarkən **39-cu Polis Bölməsi** əməkdaşlarının çevikliyi və operativliyi sayəsində saxlanılmışdır. Səbail RPİ tərəfindən araşdırma aparılır.

◆◆◆

**Şəki ŞRPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində Aşağı Göynük kənd sakini F.Mustafayevin yaşadığı evin zirzəmisinə baxış zamanı oradan 415 qram marixuana aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Sabirabad RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində sentyabrın 19-da “Kasmella” MMC-yə məxsus 28 ədəd qaz balonunu oğurlamaqda şübhəli bilinən Zəngənə kənd sakini E.Nəbiyev saxlanılmışdır.

◆◆◆

**Abşeron RPİ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Masazır qəsəbəsi ərazisində Sumqayıt şəhər sakini, əvvəllər dəfələrlə məhkum olunmuş V.Abışovdan “Stalker M-906” markalı tapança, patron darağı və 2 ədəd patron aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Biləsuvar RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş B.Zeynalovun idarə etdiyi “KİA” markalı avtomobilə baxış zamanı oradan 1 kiloqram 889 qram heroin, 276 qramdan artıq metamfetamin, 300 qramdan artıq tiryək, sərnişini Ş.Əliyevdən isə heroin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Bərdə RPŞ** əməkdaşlarının keçirdikləri "Xaşxaş-2021" şərti adlı kompleks əməliyyat-axtarış və profilaktik tədbirlər nəticəsində Mustafaağalı kənd sakini, əvvəllər məhkum olunmuş Ə.Aslanova məxsus həyətyanı sahədən kultivasiya yolu ilə yetişdirilmiş 24 ədəd çətənə kolu, evindən isə 3 kiloqrama yaxın marixuana aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Salyan RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində Noxudlu kənd sakini D.Rəhimova məxsus həyətyanı sahədən kultivasiya yolu ilə yetişdirilmiş 3 ədəd çətənə kolu, habelə oradakı yardımçı təsərrüfata baxış zamanı 400 qram marixuana aşkar edilərək götürülmüşdür.

*Natiq Cavadov*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10020
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:00
Qiyməti 40 qəpik